

Oqtay Rza
Əməkdar müəllim

# QOŞA QANADIMDIR ELM VƏ SƏNƏT!

## ÜNSÜRLƏRİN SƏSİ

### BARİUM

Mənsiz qazıla bilməz
Dərin-dərin quyular;
Lazımam təbabətə,
Ağır mineralım var.

### BOR

Mənsiz solar təbiət,
Bitkilər açmaz çiçək;
Nadir kristallarım
Parıldayır şüşə tək.

### BROM

Saf, təmiz buxarımdan
Bitkilər zəhər dadır;
Amma duzum həmişə
Əsəb xəstələrinin
Qiymətli dərmanıdır.

### İNDİUM

Məişətə, həyata
Faydam artır get-gedə
İlvanium axtarın
Teleskopda, güzgüdə.

### KÜKÜRD

Kibrit, barıt oluram,
Oluram məlhəm, rezin.
Pambıq, üzüm becərən
Necəyəm, özü desin.

### TANTAL

"Çar arağı"na qarşı
"Sinə gərən" ustayam.
Mən sümük birləşdirən
Cərrahların dostuyam.

***

Qış xoş havalarda yaza çevrilir,
Donan su daşlaşıb buza çevrilir.
Xlor - boğucu qaz, natrium zəhər,
Birləşib süfrədə duza çevrilir.

Əzəldən dəyişməz, saf qalıb qızıl,
İnsan çoxaldıqca azalıb qızıl.
Heç cür qarışığı olmadığından
Paklıq kitabına yazılıb qızıl.

Dünyanın ən gözəl daşıdır almaz,
Hələ bərklikdə də tayı tapılmaz.
Qrasit min dəfə kövrəkdir ondan,
Götür zərrəsini, ağ kağızı yaz!

Almaz da, qrasit də yalnız
Karbondan ibarətdir.

### İZOTOPLAR

Şagird uşaqlığım baxır uzaqdan,
Tələbə gəncliyim qalıb arxada.
"İzotop" sözünü eşidən zaman
Müdrik adamları salıram yada.

... Atom mövzusunu keçən müəllim
Nüvə hekayəti söyləyib bizə.
Həyatdan ürəyə keçən müəllim
Həyat həkk eləyib ürəyimizə.

İzotop sayaram sizə nə qədər,
İzotop - qəhrəman, sərkərdə, sələf.
Zərdüşt, Şah İsmayıl, Tusi, Ələsgər.

Sanki il yüyürüb, fəsillər qaçıb,
İzotop kimidir taleyim, yolum...
İndi atası tək kitabı açıb,
"İzotop" bəhsini oxuyur oğlum.

Şagirdlik günümə, ayıma düşüb,
Babamın tövsiyyə xəzinəsindən.
Vətənə bağlılıq payıma düşüb -
Nəvəm öyrənəcək bu dərsi məndən!